# Qarabağın dirçəlişində qardaş ölkənin töhfəsi




# Tarixi bağlardan strateji müttəfiqliyə

**Tarixin yaddaşına qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsi regionda yeni siyasi və iqtisadi reallıqlar yaratdı. Prezident İlham Əliyevin qətiyyətli iradəsi və Azərbaycan Ordusunun rəşadəti ilə qazanılan zəfərin ardınca daha böyük və uzunmüddətli missiya başladı: Qarabağın yenidən qurulması və inkişafı.**

Bu gün Qarabağın bərpası həm Azərbaycanın, həm də regionun gələcəyini müəyyənləşdirən strateji layihədir. Bu prosesdə Azərbaycanın ən yaxın müttəfiqi olan Türkiyə xüsusi rol oynayır. Hələ 2020-ci ildə müharibə zamanı Azərbaycanın haqlı mübarizəsinə Prezident Rəcəb Tayyib Ərdoğanın, həmçinin Türkiyə mediasının və ictimaiyyətinin dəstəyi qardaşlığın sarsılmazlığını bir daha sübut etdi. İndi isə bu dostluq Qarabağın bərpası və inkişafı sahəsində konkret layihələr və investisiyalarla davam edir.

Türkiyə şirkətləri Qarabağın bərpası prosesində ön sıralarda yer alaraq, regionun inkişafına böyük töhfə verirlər. Bu, Azərbaycan və Türkiyə arasında tarixi dostluq və strateji tərəfdaşlığın parlaq nümunəsidir. Türkiyənin ticarət naziri Ömər Bolatın açıqlamalarına görə, türk şirkətləri Azərbaycan və Özbəkistanda indiyə qədər 28 milyard dollar həcmində inşaat layihələrini uğurla həyata keçiriblər. Bu layihələrin mühüm bir hissəsi Qarabağın yenidən qurulması və sosial-iqtisadi inkişafına yönəlib.

**(davamı 7-ci səhifədə)**

# Qarabağın dirçəlişində qardaş ölkənin töhfəsi

## Tarixi bağlardan strateji müttəfiqliyə

(əvvəli 1-ci səhifədə)

İşğaldan azad edilən Qarabağ torpaqlarında genişmiqyaslı quruculuq və abadlıq işləri sürətlə davam edir. Şuşa, Ağdam, Füzuli, Zəngilan, Laçın, Cəbrayıl, Kəlbəcər və digər rayonlarda reallaşdırılan layihələr infrastrukturun yenilənməsi ilə yanaşı, eyni zamanda müasir şəhərsalma konsepsiyasına əsaslanan yeni yaşayış məkanlarının formalaşmasına xidmət edir. Xüsusilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edildikdən sonra burada tarixi abidələrin bərpası, yeni turizm və mədəniyyət infrastrukturunun qurulmasıdır. Eyni zamanda Ağdam, Füzuli və Zəngilan rayonlarında müasir şəhərsalma layihələri həyata keçirilir. Bu ərazilərdə "ağıllı şəhər" konsepsiyası tətbiq olunur və bərpa prosesində Türkiyənin aparıcı və "ağıllı kənd" şirkətləri iştirak edirlər. Yollar, körpülər, hava limanları, yaşayış kompleksləri, sənaye parkları və enerji obyektlərinin inşasında Türkiyə mühüm təcrübəsini Qarabağın bərpasına yönəldir.

Xüsusilə nəqliyyat və logistika sahəsində həyata keçirilən layihələr regionun iqtisadi potensialını artırır. Füzuli Beynəlxalq Hava Limanının rekord müddətdə tikilib istifadəyə verilməsi və Zəngilan Beynəlxalq Hava Limanının açılması regiondaxili uçuşları asanlaşdırmaqla bərabər, həm də beynəlxalq investorların və xarici turistlərin bölgəyə marağını artırır. Türkiyə şirkətləri bu hava limanlarının tikintisində, infrastrukturların yaradılmasında və logistika şəbəkəsinin formalaşdırılmasında fəal iştirak edirlər.

Azərbaycan ilə Türkiyə arasında əməkdaşlıq iqtisadi, o cümlədən tarixi və mənəvi dəyərlərə əsaslanır. Qarabağın yenidən qurulması prosesində Türkiyənin fəal iştirakı regionun gələcək inkişafına həlledici töhfə verməklə yanaşı, iki qardaş ölkənin strateji tərəfdaşlığını daha da gücləndirir. Qarabağın bərpası yalnız Azərbaycan deyil, ümumilikdə türk dünyası üçün mühüm prosesdir və bu, bölgədə uzunmüddətli sülh və rifahın təminatına zəmin yaradır.

Qardaş ölkələr arasında iqtisadi əlaqələr artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib, imzalanmış müqavilələr Qarabağın bərpası prosesində Türkiyə şirkətlərinin daha geniş şəkildə iştirakını təmin edir. Azərbaycan və Türkiyə arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər çərçivəsində türk biznesmenləri Qarabağda yeni müəssisələr qurur, kənd təsərrüfatı və sənaye sahələrinə investisiya yatırırlar. Ağdam və Zəngilanın sənaye parkları həm Qarabağın, həm də ümumilikdə Azərbaycanın qeyri-neft sektorunun inkişafı üçün yeni imkanlar açır. Türkiyə investorlarının bu sahələrdə marağı artmaqdadır. Müasir texnologiyaların tətbiqi, "yaşıl enerji" və aqropark layihələri Türkiyənin Qarabağın iqtisadi həyatında uzunmüddətli iştirakına zəmin yaradır.

Qardaş ölkə mədəni və sosial layihələrdə də yaxından iştirak edir. Bu əməkdaşlıq Qarabağın yenidən qurulması, həmçinin tarixi, mədəni və mənəvi dəyərlərinin qorunmasını hədəfləyir.

Azərbaycan ilə Türkiyə arasında təhsil və mədəni əlaqələrin genişlənməsi Qarabağın gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycan və Türkiyə universitetləri arasında əməkdaşlıq proqramları artır, birgə tədqiqatlar və akademik mübadilə layihələri həyata keçirilir. Qarabağda yeni təhsil və araşdırma mərkəzlərinin yaradılması planlaşdırılır ki, bu da regionun intellektual inkişafına xidmət edir. Qarabağın mədəni irsinin qorunması və bərpası prosesində Türkiyə mütəxəssisləri yaxından iştirak edirlər. Şuşa və Ağdamdakı tarixi abidələrin bərpası xüsusi önəm daşıyır. Şuşa Azərbaycan xalqının mədəniyyət beşiyi olmaqla yanaşı, eyni zamanda türk-müsəlman sivilizasiyasının parlaq nümunələrindən biridir. Buradakı məscidlər, xan sarayları, türbələr və digər tarixi-memarlıq abidələrinin bərpasında Türkiyə memarları və restavrasiya üzrə mütəxəssisləri mühüm rol oynayırlar.

İşğal dövründə ermənilər tərəfindən dağıdılan və təhqir edilən tarixi-mədəni irsin yenidən canlandırılması prosesində Türkiyənin dəstəyi qardaşlıq bağlarının daha da möhkəmləndiyini göstərir. Şuşada Yuxarı Gövhər Ağa və Aşağı Gövhər Ağa məscidlərinin, Ağdam Cümə məscidinin və digər dini-mədəni obyektlərin bərpası bu prosesin əsas hissəsidir. Türkiyə şirkətləri, həmçinin Qarabağda müasir mədəniyyət və incəsənət mərkəzlərinin yaradılmasında da iştirak edirlər. Teatr, muzey və sərgi salonlarının açılması Qarabağın yenidən dirçələn mədəni həyatını daha da zənginləşdirəcək. Həmçinin Qarabağın böyük tarixi-mədəni dəyərlərə malik bir bölgə kimi yenidən canlanmasına imkan yaradacaq. Türkiyə və Azərbaycanın bu sahədə birgə səyləri türk-müsəlman sivilizasiyasının bu torpaqlardakı izlərini bərpa edərək gələcək nəsillərə ötürmək üçün mühüm missiyadır. Azərbaycan və Türkiyə arasındakı əməkdaşlıq türk dünyasının inteqrasiyasını gücləndirir. Son illərdə Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində sıx əməkdaşlıq edən türk dövlətləri, iqtisadi, siyasi və mədəni birliyi dərinləşdirərək, bölgədə yeni geostrateji reallıqlar yaradırlar. Bu prosesin ən mühüm elementlərindən biri Zəngəzur dəhlizinin açılmasıdır. Bu layihə Azərbaycan, Türkiyə və Mərkəzi Asiya ölkələri üçün mühüm nəqliyyat arteriyası olmaqla yanaşı, Avropa və Asiyanı birləşdirən strateji qapı rolunu oynayacaq. Zəngəzur dəhlizi Mərkəzi Asiya respublikalarının Türkiyə və Avropa bazarlarına çıxışını təmin edərək Türk dünyasını iqtisadi baxımdan daha da gücləndirəcək.

Türkiyənin Qarabağın bərpasına verdiyi dəstək təkcə humanitar missiya deyil, həm də strateji və geosiyasi bir addımdır. Bu layihələr regionda sabitliyin və rifahın təminatına töhfə verməklə yanaşı, Azərbaycanın Cənubi Qafqazın əsas iqtisadi və siyasi güc mərkəzi kimi mövqeyini daha da möhkəmləndirir. Qarabağın yenidən qurulması bölgənin iqtisadi canlanmasını sürətləndirəcək, Qafqazın ən inkişaf etmiş və dayanıqlı bölgəsinə çevirəcək.

Türk dünyasının inteqrasiya prosesi enerji və logistika sahələrində də özünü göstərir. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən nəqliyyat dəhlizləri - Bakı-Tbilisi-Qars dəmir yolu, trans-Xəzər Nəqliyyat Marşrutu və yeni layihələr türk dövlətləri arasında ticarəti daha da sürətləndirir. Azərbaycanın enerji layihələri - TANAP və TAP kimi qaz kəmərləri Avropanın enerji təhlükəsizliyinə töhfə verməklə yanaşı, türk dövlətlərinin geosiyasi əhəmiyyətini artırır.

Beləliklə, Qarabağın bərpası və Zəngəzur dəhlizinin gələcəkdə açılması bütün türk dünyası üçün yeni imkanlar yaradacaq. Bu proses türk dövlətlərinin dünya siyasətində daha güclü oyunçu kimi çıxış etməsinə və regional sabitliyin təmin olunmasına xidmət edir.

Qarabağ bu gün yalnız bərpa edilmir, eyni zamanda Türk dünyasının birlik və əməkdaşlıq simvoluna çevrilir.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**










Respublika .- 2025.- 31 yanvar (№21).- S.1;7.